*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 377-382*

https://doi.org/10.62837/2025.6.377

**NAZƏNDƏ SABIR QIZI HACIYEVA**
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Gəncə Dövlət Universiteti Publik Hüquqi Şəxs***
*nazende.haciyeva1960@mail.ru*

# MÜHARİBƏ DÖVRÜ AZƏRBAYCAN POEZİYASINDA FƏLSƏFİ ŞEİR

**Açar sözlər:** müharibə, insan, məhəbbət, humanism, fəlsəfi şeir, cəhət, qəhrəmanlıq, şair
**Ключевые слова:** война, человек, любовь, гуманизм, философская поэзия, аспект, героизм, поэт
**Key words:** war, man, love, humanism, philosophical poetry, aspect, heroism, poet

Müharibə dövrü Azərbaycan poeziyasında özünü göstərən yaradıcılıq təmayüllərindən biri fəlsəfi şeirdir. Poeziyanın fəlsəfi mündərəcəyə doğru hərəkəti sağlam və təbii bir hal idi. Dövrün, onun mühüm tarixi təcrübələrinin geniş dərkinə göstərilən səy həqiqi poeziyaya məxsus sağlam keyfiyyətdir, inkişaf və yetkinlik əlamətidir. Xüsusilə müharibə illərində çox çətin və mürəkkəb bir zamanın, onun hadisə və faciələrinin fəlsəfi idrakına şeirimizin meyli müsbət cəhət idi. Poeziyanın fəlsəfi zənginliyi uğrunda mübarizə aparan və bu təmayülü sovet şeirinə xüsusi bir ehtiras və inadla gətirən sənətkar Səməd Vurğun kimi qüdrətli bir şair idi. Təsadüfi deyil ki, fəlsəfi poeziya ətrafında mübahisələr də məhz onun «Həyat fəlsəfəsi», «Ürək», «Dörd söz», «İlk bahar və mən», «Sözün şöhrəti», «İstiqbal təranəsi» və «Qərinədən qərinəyə» şeirləri ətrafında cərəyan edirdi. S.Vurğunun bundan əvvəlki şeirlərində də gerçəkliyin fəlsəfi mahiyyətini duymağa və mənalandırmağa qüvvətli maraq hiss olunurdu. Poeziyanın fəlsəfi fikirlə zənginliyini şair öz ədəbi çıxışlarında da ehtirasla müdafiə edir, «ədəbiyyatımızın kamal tacına yeni incilərlə ziynət verək» deyirdi. Şairin bu çıxışları və təşəbbüsü geniş mübahisələrə səbəb oldu. Müharibə qurtarandan bir ay sonra «Azərbaycan ədəbiyyatının gələcək vəzifələri» adlı məruzəsində S.Vurğun «ədəbiyyatımızın kamal tacına yeni incilərlə ziynət verək» tezisinə qayıdaraq deyirdi: «Bu, şüar deyildi. Bir sənətkar qəlbindən qopan böyük bir arzunun kiçicik ifadəsi idi. Mən bütün əsərlərin, hər şeydən əvvəl, məna gözəlliyi qarşısında pərəstiş etməyə adət etmişəm. Çünki heç bir gözəlliyin ömrü məna gözəlliyinin ömrü qədər uzun ola bilməz».

Daha sonra S.Vurğun çox haqlı olaraq qeyd edirdi ki, «…əsrimiz – böyük mənalar əsridir. Belə bir əsrin ədəbiyyatı da mənalar ədəbiyyatı olmalıdır». [1,126]

Hələ müxtəlif illərdə Azərbaycan tənqidində və ədəbiyyatşünaslığında bu şeirlər bəzən qeyd-şərtsiz təriflənib, bər-bəzəkli ifadələrlə göyə qaldırılmış, bəzən də demək olar ki, eyni dərəcədə tənqid olunub alt-üst edilmişdir. Tənqidçi H.Orucəli

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 377-382*

hələ 1945-ci ildə bu əsərləri «təkcə müəllifin deyil, ümumiyyətlə, Azərbaycan ədəbiyyatının maraqlı incilərі» adlandırmışsa da bir qəzet məqaləsinin verdiyi imkanlar hüdudunda onları təhlil etməmişdi. Tənqidçi Ə.Ağayev göstərirdi ki, S.Vurğunun lirikası müharibə illərində müstəqim bir xətlə inkişaf etməmiş, şairin qarşısına müəyyən yaradıcılıq çətinlikləri çıxmışdır. «Əslinə baxsan S.Vurğunun lirikasında mücərrədlik və «fəlsəfi şeir» axtarışları meyli həmin bu dövrdə onun dramaturgiyasına da yol tapmışdır… Bu şeirlərdəki mücərrədliyin ayrı-ayrı əlamətləri onun müharibə dövründə yazdığı başqa şeirlərdə də vardır. Lakin S.Vurğun bu böhranlı vəziyyətdən yaxa qurtardı». Ə.Ağayev qeyd edir ki, S.Vurğunun fəlsəfi şeirləri, hər şeydən əvvəl, onun yaradıcılıq çətinlikləri ilə bağlıdır. Halbuki hər hansı bir şairin yaradıcılıq çətinlikləri ilə qarşılaşarkən fəlsəfi şeir yazması iddiasının özü mübahisəlidir. Digər tərəfdən isə tənqidçi mücərrədlik və fəlsəfi şeir axtarışları kimi iki müxtəlif anlayış və məfhumu eyniləşdirmiş, hər hansı fəlsəfi məzmundan uzaq mənasında götürərək dırnaq arasına almış, nəhayət, S.Vurğunun yaradıcılığının özünəməxsus cəhətlərindən birini əks etdirən fəlsəfi şeirləri onun fəaliyyətinin «böhranlı vəziyyəti» kimi qələmə vermişdir.

Qələbəyə inam hissinin gücü, yaxınlaşmaqda olan böyük zəfərin pafosu S.Vurğunun fəlsəfi şeirlərinin mayasını təşkil edir. Müharibənin sonlarına doğru fəlsəfi şeirlərin sayca artması faktının özü də bu cəhətdən maraqlıdır. S.Vurğunun fəlsəfi şeirlərinin yazılma tarixi bu baxımdan çox şey deyir: onlardan yalnız biri 1942-ci ildə, biri 1943-cü ildə, beşi isə 1944-1945-ci illərdə yazılmışdı. Bu fəlsəfi şeirlərin ən yaxşılarının mərkəzində qoyulan ideya konflikti də oxucu təxəyyülünü qanadlandırmaq üçün əsaslı zəmin rolunu oynayır, şairin ifadə etdiyi böyük həqiqətlərə onu inandıra bilirdi. Hələ müharibədən əvvəl də S.Vurğun ilk baxışda sadə görünən həyat faktına, adi bir duyğuya, kiçik hadisəyə, məlum tarixi epizoda dərin məna və məzmun aşılmağı, onların fəlsəfi mahiyyətini açmağı, bu zəmində isə zaman, insan, ədalət və s. məfhumlar ətrafında düşünməyi, düşündüklərini oxucusu ilə bölüşməyi sevirdi. Şair az qala bütün Yer kürəsinin odlar içində yandığı İkinci Dünya Müharibəsi illərində də bu mübarizənin insan düşüncəsini məhv edə bilmədiyi qənaətində idi. Həmin düşüncələr axarında S.Vurğunun mövqeyi tamamilə aydın və realist mövqedir:

*Hünər qanad versin torpağa, daşa,*
*...Azadlıq ordusu varsın bir başa,*
*...Ölüm təslim olsun, həyat var olsun! [2,73]*

Bu sözlər sadəcə şüar deyil, tərəqqipərvər bəşəriyyətin əli ilə «Prometeyin zəncirdən qurtaracağına» heç bir şübhə etməyən şairin böyük həqiqət, real gələcək haqqında fəlsəfi qənaətinin poetik təsdiqidir:

*...Fəlakət qocalmış...qartdır o köpək.*
*Onun sümükləri tez çürüyəcək...*
*Səadət – gənclikdir, adı-gələcək!*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 377-382*

*Onun gözlərində həyat eşqi var –*
*Var olsun gələcək! Var olsun bahar!*

«Dörd söz» şeirində S.Vurğun məhəbbət, səadət, vətən və zəfər məfhumlarının mənası üzərində düşünür. Əsərdə məhəbbət –insanı zamanın fövqünə qaldıran, onun insanlıq şərəfini yüksəldən son dərəcə qadir bir duyğu, səadət –ölçüsü və hüdudu olmayan xoşbəxt bir sabah, vətən-insanın gözü-könlü doymayan bir ana qucağı, «zəfər isə dönməz oğulların iradəsindən yaranıb. Əslində həmin şeir «azad zəhmət dünyasının mərd insanları»nın şəninə şairin qoşduğu qüdrətl i bir himndir:

*Vətən yurdu, doğma ocaq! Bəxtiyar insan,*
*Sənin qartal qanadınla mən uçacağam!*

-misraları ilə şairin ayağını yerdən üzüb mücərrəd aləmlərə uyduğunu, «bu uçmağın o uçmaqdan olmadığına» inandırmaq üçün həmin bəndin ikinci beytinə də diqqət yetirək:

*Həyat üçün doğulmuşam yaranışımdan,*
*Şeir, sənət aləminə nur saçacağam!*

İstər bu şeirlərdə, istərsə də «Sözün şöhrəti», «Qərinədən qərinəyə», «İstiqbal təranəsi» əsərlərində S.Vurğun müharibənin ayrı-ayrı hadisə, insan, epizod və detallarını təsvir edən bəzi müasirlərinin və özünün bir çox şeirlərindən fərqli olaraq, odlu illərin fəlsəfi mahiyyətinə nüfuz edir.

Bu əsərlərində şair fəlsəfi tarixi obrazlara müraciət etməklə maraqlı nəticələrə gəlirdi. Onlardakı bədii obrazlar ədalətin, həqiqətin, işığın, səhərin, baharın –yəni sovet quruluşunun rəzalət, riya, qış, qaranlıq- yəni faşizm üzərində qələbəsinin labüd olduğunu bədii cəhətdən əsaslandırmağa xidmət edirdi. Həmin əsərlərin ruhu S.Vurğunun yaradıcılığı üçün səciyyəvidi idi. Ən yaxşı şeirlərindən, poema və dramlarından tutmuş, ömrünün son illərində Ümumittifaq mətbuatında çap etdirdiyi nəzəri məqalələrinə, Sovet yazıçılarının II qurultayındakı məruzəsinə qədər o, həmişə bədii yaradıcılıq qarşısında fəlsəfi dərinlik, coşğun pafos, yüksək mənəviyyatlı müsbət qəhrəman, zəngin obrazlı dil və s. tələblər qoyurdu.

S.Vurğunun fəlsəfi şeirlərinə münasibətdə obyektiv elmi mövqe tutan alimlər də olmuşdur. Akademik M.Arif şairin bu əsərlərinə onun al-əlvan yaradıcılıq imkanlarından birinin təzahürü kimi baxır, bunu bir sənətkar olaraq şairin təbiətindəki fəlsəfi təmayüllə izah edirdi. Onun fikrincə, S.Vurğun ümumiyyətlə, mütəfəkkir şairdir. Şairin əsərlərində fikir heç vaxt çılpaq, publisist şəkildə meydana çıxmır. «Müharibədən əvvəl S.Vurğunun əsərlərində çox vaxt ümumi, mücərrəd qoyulan fəlsəfi fikirlər indi müharibə illərində, konkret şəkil almağa başlayır, hadisələr uzaq tarixi zəmindən ayrılıb müasir həyata köçürülür, xeyir və şər, işıq və qaranlıq kimi mücərrəd məfhumlar real tarixi məna kəsb edirdi».*[3,59]*

1941-1945-ci illərdə şeirləri çap olunan gənclər arasında Ələkbər Ziyatay, Bəxtiyar Vahabzadə, Adil Babayev, Qasım Qasımzadə, Nəbi Babayev (Xəzri), Novruz Gəncəli, Pəncəli Saleh, İmran Seyidov, İbrahim Kəbirli, Qabil

İmamverdiyev, Yusif Mehdizadə, Şamil Cəmşid, Məryəm Axundzadə, Əlifağa Bağırov, Ülfət Eyvazov və başqaları da vardı. Müharibə günlərində ilk şeirlərini çap etdirən müəlliflərin bir çoxunun yazdıqları bədii səviyyəcə yüksək olmasa da, o dövrün poeziyası üçün vacib əlamət sayılan daxili hərarətdən xali deyildi. Əsərləri Böyük Vətən müharibəsi ilə sıx əlaqədar olub bilavasitə cəbhənin özündə yaranan bu gəncliyin bəzi nümayəndələrini xüsusi qeyd etmək məqsədəuyğun olardı.

İslam Səfərli müharibənin ilk günlərindən orduya getmiş, ilk şeirlərini də əsasən cəbhədə yazmış və onların bir qismini ordu mətbuatında çap etdirmişdir. Bu şeirlərdə Vətən uğrunda vuruşmaq əzmi, döyüşən gəncliyin nəfəsi güclüdür:

*Qalx, ana torpağın məğrur balası,*
*Ağırdır vurulan düşmən yarası.*
*Zəfərlər yaradan qolun var olsun,*
*Qarşında cəlladlar tarımar olsun!*
*Gülsün əbədiyyət, həyat yar kimi,*
*Qafqaz çiçəklənsin ilk bahar kimi!*

İ.Səfərlidən fərqli olaraq, Böyükağa Qasımzadə cəbhəyə gedəndə artıq bir neçə il idi ki, şeir yazır, hətta oxucularına "Şirin sözlər" kitabını da təqdim etmişdi. 1942-ci ildə yazdığı "Hücum nəğməsi"ni vətəni, eləcə də şeiri, sənəti qorumağa həsr etmişdi:

*Hücum, dilə gəlsin dərələr, düzlər,*
*Hücum, ürəklərə dolsun qəzəb, kin!*
*Hücum, sinələri eylərək sipər,*
*Solmasın gül bağı şeirin, sənətin. [4,59]*

Misal gətirdiyimiz parçalar göstərir ki, B.Qasımzadənin lirikası məzmunca dolğun və mənalı olduğu kimi, formaca də əlvandır. Onun lirik qəhrəmanının məqsədi böyük, duyğuları nəcib, iradəsi möhkəmdir:

*Məni qorxutmayır nə ölüm, nə qan,*
*Qoy olsun bu canım vətənə qurban.*
*Ölsəm də mərd ölüm, görənlər desin:*
*Qartal yuvasından bir bala getdi.*

Bu sətirlərdə gələcək vuruşlarda lazım gəldikdə qəhrəmanlıqla həlak olacaq döyüşçünün ölümü ucalıq və vüqar rəmzi olan qartal timsalında emosionallıqla mənalandırılmışdır.

1941-1945-ci illər ərzində həyatımızda elə ciddi və əhəmiyyətli hadisə göstərmək olmaz ki, şeirdə bu və ya digər dərəcədə öz bədii inikasını tapmamış olsun. Qoşunlarımızın müxtəlif istiqamətlərdə düşmən səflərini yarması, ayrı-ayrı sovet şəhərlərinin faşist əsarətindən azad edilməsi, əsgər və zabitlərin, partizanların qəhrəmanlıqları, bir sözlə, müharibə dövrünün bütün vacib məsələləri şeirimiz üçün gündəlik mövzu idi. Müharibənin ilk aylarında poetik əsərlərdə müşahidə olunan ritorika və ümumiçilik sonralar tədricən azalmışdı. Bu, şairlərin döyüş hadisələrini bilavasitə müşahidə edib təsirlənmələri, konkret məsələlərdən yazmaları ilə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 377-382*

əlaqədardır. Poeziya hadisələrin sadəcə qeydçisi kimi qalmayıb onların bədii ifadəsini verir, ümumiləşdirmələr yolu ilə gedirdi. Bu mənada cəsarətlə demək olar ki, 1941-1945-ci illərin poetik əsərlərinin ən yaxşılarının məcmusu Böyük Vətən müharibəsi dövrünün bədii salnaməsidir. Xalqımızın cəbhədə göstərdiyi tarixi qəhrəmanlıqları əbədiləşdirən şeirlər bu salnamənin ən parlaq səhifələrini təşkil edir.

## ƏDƏBİYYAT:

1. Azərbaycan sovet ədəbiyyatı. Bakı, 1988.
2. A.Səmədov. Səməd Vurğunun poeziyası. Bakı, Tezislər, 2000.
3. Teymur Əhmədov. Azərbaycan yazıçıları. Bakı, 1995.
4. Sadıq Şükürov. Tarixi poemaların tədrisi. Bakı, 1987.
5. Əliyar Qarabağlı. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, 1968.

**Xülasə**

**MÜHARİBƏ DÖVRÜ AZƏRBAYCAN POEZİYASINDA FƏLSƏFİ ŞEİR**

Müharibə dövrü Azərbaycan poeziyasında özünü göstərən yaradıcılıq təmayüllərindən biri fəlsəfi şeirdir. Poeziyanın fəlsəfi məndərəcəyə doğru hərəkəti sağlam və təbii bir hal idi. Dövrün, onun mühüm tarixi təcrübələrinin geniş dərkinə göstərilən səy həqiqi poeziyaya məxsus sağlam keyfiyyətdir, inkişaf və yetkinlik əlamətidir. Xüsusilə müharibə illərində çox çətin və mürəkkəb bir zamanın, onun hadisə və faciələrinin fəlsəfi idrakına şeirimizin meyli müsbət cəhət idi. Poeziyanın fəlsəfi zənginliyi uğrunda mübarizə aparan və bu təmayülü sovet şeirinə xüsusi bir ehtiras və inadla gətirən sənətkar Səməd Vurğun kimi qüdrətli bir şair idi.

Poeziya hadisələrin sadəcə qeydçisi kimi qalmayıb onların bədii ifadəsini verir, ümumiləşdirmələr yolu ilə gedirdi. Bu mənada cəsarətlə demək olar ki, 1941-1945-ci illərin poetik əsərlərinin ən yaxşılarının məcmusu Böyük Vətən müharibəsi dövrünün bədii salnaməsidir. Xalqımızın cəbhədə göstərdiyi tarixi qəhrəmanlıqları əbədiləşdirən şeirlər bu salnamənin ən parlaq səhifələrini təşkil edir.

**Резюме**

**ФИЛОСОФСКИЙ СТИХ В ПОЭЗИИ АЗЕРБАЙДЖАНА ВОЕННОГО ПЕРИОДА**

**Доц.Н.С.Гаджиева**

Одной из творческих тенденций, проявившихся в азербайджанской поэзии военного времени, является философская поэзия. Движение поэзии к философскому содержанию было здоровым и закономерным явлением. Стремление к широкому пониманию эпохи, её важного исторического опыта – здоровое качество, присущее истинной поэзии, признак развития и зрелости.

Особенно в военные годы стремление нашей поэзии к философскому осмыслению сложнейшего и трудного времени, его событий и трагедий было позитивным. Художником, который боролся за философское богатство поэзии и с особой страстью и упорством привнёс эту тенденцию в советскую поэзию, был такой могучий поэт, как Самед Вургун.

Поэзия не осталась простым хронистом событий, а дала им художественное выражение, пошла по пути обобщений. В этом смысле можно смело сказать, что собрание лучших поэтических произведений 1941–1945 годов –это художественная летопись Великой Отечественной войны. Самые яркие страницы этой летописи – стихи, увековечивающие исторический подвиг нашего народа на фронте.

**Summary**

**Doc.N.S.Hajiyeva**

**PHILOSOPHICAL POETRY IN WAR-ERA AZERBAIJAN POETRY**

One of the creative tendencies that manifested itself in war-era Azerbaijani poetry is philosophical poetry. The movement of poetry towards philosophical content was a healthy and natural phenomenon. The effort shown to a broad understanding of the era, its important historical experiences is a healthy quality inherent in true poetry, a sign of development and maturity. Especially during the war years, the tendency of our poetry to a philosophical understanding of a very difficult and complex time, its events and tragedies was a positive aspect. The artist who fought for the philosophical richness of poetry and brought this tendency to Soviet poetry with special passion and persistence was a powerful poet like Samad Vurgun.

Poetry did not remain a mere recorder of events, but gave them artistic expression, and went along the path of generalizations. In this sense, it can be boldly said that the collection of the best poetic works of 1941-1945 is the artistic chronicle of the Great Patriotic War. The poems that immortalize the historical heroism of our people on the front constitute the brightest pages of this chronicle.

**Rəyçi: dos.Naziymə Axundova**